

# Tanıdığım Nizami Cəfərov

*Allahverdi Eminov*

**Akademik Nizami Cəfərov haqqında yazmaq həvəsi - tələbi heç də onun yuvarlaq ömrü ilə bağlı deyil və ümumiyyətlə belə bir ənənəni xoşlamaram. O şəxs yazarın yaddaşında, xatirələrində, günün görüşlərində yaşayırsa tərəddüdə nə ehti-yac? Bu da var ki, Nizami müəllimin yaradıcılığı və həyat fəaliyyəti o qədər genişdir - bu da mənim işimi ”çətinləşdirdi” desəm səhvə yol verməm. Bir şəxsdə, yaşının bu çağında yox, 25-30 il öncə insan gücünün inkişaf kodeksi yetərli idi, elmdə və tənqidi düşüncə tərzində öz sözünü deyirdi.**

Maraqlısı o idi ki, bu gənc hələ orta məktəbdə oxuyarkən ”seçilmişlər” sırasında adı hallanırdı. Bakı Dövlət Univer-sitetində təhsil alarkən əsl insanlıq və elmi mühitdə inkişaf etdi, görüb-götürdü, xırda hisslərdən uzaqlaşdı (əzəldən də bu xüsusiyyətlər olmamışdı). Başqa necə mümkündü? Görkəmli dilçilərdən Ağamusa Axundov, Tofiq Hacıyev, Yusif Seyidov, Fərhad Zeynalov, Səlim Cəfərov, ədəbiyyatşünaslardan Mircəlal Paşayev, Təhsin Mütəllimov, Pənah Xəlilov, Bəxtiyar Vahabzadə, Bəkir Nəbiyev, Əlyar Cə-fərli və b. əhatəsində yalnız Nizami Cəfərov xarakterində formalaşmaq olardı. Az sonra ”Ədəbiyyat qəzeti”ndə görkəmli şair və ədəbiyyatçı - alim Nəriman Həsənzadə-nin baş redaktorluğu altında çalışmaq, publisistika janrında püxtələşmək bacarığında istedadını aşkara çıxarmaq, ədəbi mühitdə cəsarətli, həm də lakonik, şirin dildə onlarla məqalələr, resenziyalar yazmaq, ədəbi söhbətlərin iştirakçısı olmaq. Mən bu epitetləri uydurmadan, içimdə xəcalət çəkmədən yazıram, çünki gözümün qarşısında baş vermişdir. O, son kurslarda oxuyarkən görüşürdüm (bizim həm də yaxın-uzaq qohumluq bağlılığımız vardır) və gələcəyinə inanırdım. Bu ”iddiamda” o amilə də söykənirdim bir pedaqoq kimi: Nizami Cəfərovda ”tənqidi təfəkkür” və ”özünütənqid” tam düşüncə tərzinin aparıcı atributları idi və göydən düşməmişdi; orta məktəbdən qaynaqlanmışdı, bir şərtlə, doğuldu elatın ab-havasında, insanların təmiz davranışın və ailə tərbiyəsində. Bu gün Nizami müəllimin ədəbi və dilçilik görüşlərini təsəvvürümə gətirəndə onun yaradıcılıq formüləsini şərti 3 qismə ayırı-ram və xarakterindən ayırmıram (digər atributları mən ikinci, üçüncü dərəcəli he-sab edirəm); öz səhvini anlamaq və düzəltmək; başqasının heysiyyatına toxunma-maq; xeyirxahlıq məqsədilə söz söyləmək (yaxud yazmaq). Əlbəttə, bu ”triada”nın qnosesoloji və emosional kökləri və makro mühiti inkaredilməzdir. Alimlər dərs dedikləri tələbələrin intellektinin inkişafından əvvəl onların daxili zənginliyinin qeydinə qalmışlar, çünki bizim milli və bəşəri yönümlü yeganə Universitetimiz qüdrətli potensiala malik olmuşdur tarixən və bu ənənə davam edir, akademik Nizami Cəfərov da heç vaxt bu güclü kollektivdən ayrılmamışdır. Bu barədə fikirləşəndə sabiq ABŞ prezidentinin birinin ifadəsini xatırladım: ”Amerika Universitetləri qüdrətlidir ona görə yox ki, Amerika varlıdır, ona görə ki, onun universitetləri varlıdır”. Məncə, hissiyata qapılmadım...

Nədənsə yazı prosesində qələmimi tez-tez saxlayıram - bu texnologiya mən-də, ümumiyyətlə yoxdur - səbəbini özüm üçün aydınlaşdıranda düşünürəm ki, bü-töv şəxsiyyət (xırdalamağa ehtiyac duymuram) olaraq Nizami Cəfərov o dərəcədə intellektual və emosionaldır ki, yazımda səhvlərə (istənilən nöqtələri unutduğuma) rast gəlsə də ötüb keçəcəkdir, ona görə ki, digər üzdə olan (!) alimlərdən fiziki şəkildə (həqiqəti gizlətmək günahdır) qəlbgenişliyi, insanların firavanlığı, azadlığı barədə həm ruhən yaşayır, həm də elmi yaradıcılığında ortaya çıxarır. Ona görə ki, Nizami müəllim filosof Pifaqorun kəlamlarını xoşlayır: ”İnsanın firavanlığı idrakın qanunlarına əsaslanarsa çox yaxşıdır”. Həqiqətdir bu: Dünyəvi idrak - Varlığın inkişafıdır, burada gələcək aləmin bütün çoxtərəfliliyi real vəziyyətdə deyil, dərk olunan formada əksini tapmışdır. Dəfələrlə vurğulamışam: Elmin zirvəsinə yüksəlmək elə də əlçatmaz görünmür, çün zəhmətlə istedad birləşmişsə kifayət edər. Bir amansız qüvvə - enerji olmalıdır: İnsansan! Sualsız! Bu fenomen isə hər bir alimə, ədəbiyyat nümayəndəsinə, sənət adamına nəsib deyil. Axı, insanın ruhu hələ yer üzündə həyat olmazdan əvvəl mövcud idi və insanın xidməti müqabilində o, müxtə-lif vücudlara keçmişdir. Deməli, insanın içindən qaynaqlanan insanlığı qazanmaq hər alimdə tapmaq bu gün xüsusilə çətinləşmişdir. Və Ömər Xəyyamın rübaisini xatırladım:

**Xilqətin başlıca məhvəriyik biz,**
**Dərk etsək, bəsirət cövhəriyik biz.**
**Cahan dairəsi qızıl bir üzük,**
**Onun nə dəyərli gövhəriyik biz.**

Mən heç də çağdaş alimləri üzüzə qoymaq istəmirəm və bu, bəzilərində qısqanclıq da doğuracaqdır, səbəbsiz də olmayacaqdır: birdən, qəfildən, gözlənilmədən elmin ən uca zirvəsində kimlərisə görürük. O isə ayağının altını görmür. Vəzifə qapısı gələnlərin üzünə qapalıdır, çün o vəzifəyə də belə, yox ”yerdən” gəlmişdir...

Ziyalılarımıza, elmi və ədəbi ictimaiyyətə, sadə əmək adamlarına bəllidir ki, Nizami Cəfərovun rəhbərlik etdiyi Atatürk Mərkəzinin meşin qapısı daima açıqdır, təmiz hava kabinetdən çıxır, xoş hava da içəri daxil olur. İçəridən bu təmizlik Nizami müəllimin özündən, xarakterindən, bayırdan isə ona pənah gətirən, yaxşılıq görmək ümidilə qapını açanlardır. Mən həmsöhbət, fikir mübadiləsi aparmaq, yeni kitabımı avtoqrafla bağışlamaq məqsədilə Atatürk Mərkəzinin binasına xoş əhvalla daxil olmuşam, mərtəbələri arxayınlıqla qalxmışam. Tərəddüd etmişəm ki, vaxtını al-mayım, vacib işi ola bilər, seçiciləri də həmçinin. Lakin qapısını açıq görüb kabinetə girmişəm. Bəli, tək olmamışdır, rayonlardan gələnlər, yaxud tanıdığım şairlərlə, yazıçılarla səmimi söhbətin şahidi olmuşam.

**Nizami müəllim ruhən zarafatcıldır (amma məntiqlə), tənqidi sözünü də elə incəliklə deyir - qəbul edirsən və ona inanırsan. O, daha ”ağ”a ”qara” demir, ”qaraya ağ”, qarşısındakı şəxsiy-yətin hisslərini - vəzifəsini yox - nəzərə alır, bəziləri kimi ”sataşmır”. Çün, o, emosional dü-şünmür, intellektual fikirləşir. Nizami müəllimdəki müdriklikdir belə bir xarakter - mövqini qoruyub saxlamaq. Axı, görmüşük, idrak etmişik: sataşmaq (qarşındakını özündən aşağı tutmaq deyərdim) üstüörtülü təhqiddir, təhqirdir. Mənim aləmimdə - cəsarətsizlikdir, sözün, niyyətin varsa birbaşa anlat ki, tərəf - müqabilin səni başa düşsün. İkibaşlı sözdən, tənqidi düşünməkdən uzaq muhakimə yürütmək, qarşısındakının hisslərini qiymətləndirməmək kimi hallar çox zərərli tərbiyədir. Nizami Cəfərov xatırlatdığım kimi, elmilə o qədər də öyünməmişdir (istedadı, qabiliyyəti Allah verir), lakin kamil tərbiyəyə yiyələnməyi valideynləri, sağlam mühiti və özü aşılayır.**

O, məktəbli ikən müəllimlərinin yanaşmasında sevinməyi, kədərlənməyi, gülməyi, hətta ağlamağı bacaran insan kimi yetişmişdir. Məşhur fransız psixoloqu Pyer Dakon demişkən: ”Bunlardan sonra uşaqlara elm öyrətməliyik”. Mənim aləmimdə düşünməyə qabil şəxslər yaşa dolanda da gənclik ruhunu saxlayırlar, ona görə ki, təfəkkür uzunömür məfhumdur.

Akademik Nizami Cəfərovun elmi və publisist yaradıcılığını təhlil etmək fikrindən uzağam - böyük araşdırma predmetidir - çox dərin analitik müqayisəli, fəlsəfi məsələlər, fikirlər, praqnozlar və s. mövcuddur, bu qənaətimi uzun illik müşahidəmə əsasən deyirəm, həmişə izləmişəm, qlobal mövzular işləmişdir. Mən neçə illərdir yaradıcılıq psixologiyasının tədqiqilə məşğulam: alimlərdə (yazıçılar da istisna deyillər) ”ikili xarakter - cizgilərini də duymuşam və özümdən soruşmuşam: - əsərində başqa təsir bağışlayır - yaxşı mənada, ancaq həyat fəaliyyəti bam-başqadır, zahiri effektlə aldadıcıdır. Və heyfslənmişəm; fransız yazıçı, filosofu Volterin kəlamlarına haqq qazandırmışam: ”İnsan orqanizmini öyrənməyə 30 əsr, qəlbini öyrənməyə əbədilik, məhvetməyə isə bir dəqiqə bəsdir”.



Sadəlövhlük mənasında demək istəməzdim: Nizami Cəfərovun qəlbi, ürəyi, canı (ruhu) o qədər pak, təmiz, xəlqidir ki, qısa söhbətində, hansısa problemə ya-naşmasında, məsləhətində bu İlahi hissiyatı sezirsən, bəlkə mənə belə görünür, xeyr: Onu tanıyanlar: qısqanclar, daxilində istəmiyənlər (varmı? mümkündür!) mə-nimlə razılaşarlar. Dəfələrlə ictimai yerlərdə, ədəbi məclislərdə, ”kaprizlərlə” dialoqunda onun səmimiyyətinə irad tutmamışlar, yaşca ondan böyüklər onu qabaqlamışılar, hərarətlə görüşmüşlər. Və özümə daha bir sual vermişəm: nə üçün elə akademiklərin, qavrayış orqanlarının obyektlərini, idrakın ayrı-ayrı fərdlərdə sərhəddini araşdırmaq istəmirlər? Həyat və ölüm, zövq almaq və əzab haqqında, dillərin şirinliyi və acılığı haqqında yazmaqdan kənarda durmuşlar? Bəlkə bu, elə onların öz xarakterlərinin dəyişkənliyidir. Bu suallara cavabı daha çox filosoflarımız düşündürməlidir. Filosof Aristoteldə oxumamışlar ki? O, yazmışdır: ”Aləmin sistemində bizə qısa müddətdə yaşamaq imkanı verilmişdir; bu həyat gözəl və əvəzsizdir: ayrılıq, hissetmə, təfəkkür yüksək nemətlər, görülmüş işdən həzz almaq, təfəkkür insanın həyatında, rəşadətli məşğuliyyətində eyiş-işrət və sevinc içində yaşamaq deməkdir”.

Nizami Cəfərovda yaradıcılıq dəyərinin baş tutmasında antik filosofun qə-naətləri təbii şəkildə özünü göstərmişdir; bunun bir səbəbi sözün geniş mənasında istedadıyla elmi inadkarlığının qovuşması və Allah adamı olmasıdır, axı Allah-Təala bütün əksiklərdə mövcud olan varlıqdır, saf nemət, ilkin qüvvədir. O, heç bir məqamda mövcudluğunu itirməmişdir, nəyisə əldə etmək üçün əyilməmişdir, himayə axtarmamışdır, çünki bir səbəb də onu anlamışlar, onda işığı görmüşlər, inanmışlar və yanılmamışlar. O, davranışı ilə, münasibət qurması ilə, xeyirxahlığı ilə ruhunun yüksək və aşağı məqamlarını gözləmişdir dərk olunan formada.

Bu böyük alimin və elə o böyüklükdə də insanın davranışı, elmi əxlaqı parlaq şəfəqlərilə işıq saçmaqdadır, ürəyi, beyni, hissləri həmişə bu dəyərlərə can at-mışdır. Allah-Təala onu fiziki bəlalardan xali etmişdir, ilahi həyata yaxınlaşdır-mışdır. Yalnız idrak yolu ilə bunlara nail olmaq mümkünsüzdür, vahid yol qəlbin təmannasızlığıdır, xeyirxahlığıdır, təvazökarlığıdır. Belə olanda insan özünü dərk edə bilir, insanlarla ünsiyyətə girir və həyatsevərləşir.

Cəsarətlə və inamla deyirəm ki, həqiqi alimdir, özü də hərtərəfli: dilçi, ədə-biyyatşünas, mətnşünas, estetik, publisist. O, bu yaradıcılıq növlərini yüksək səviyyədə tədqiq etmiş, bu janrlar (növlər) arasındakı mümkün və qeyri-mümkün nüansları fərqləndirmiş, təhlilinə səy göstərmişdir. Biz bu ”növlərin” çətinliyini bilirik. Ona az mane olmamışlar, bəxtin dönüklüyünə inanmışdırsa, ardıcıl mübarizədə istedadını ortaya qoymuş, onlarla monoqrafiyalar, yüzlərlə elmi əsərlər, publisist məqalələr nəşr etdirmişdir, hətta memuar kitab da yadigar qoymuşdur - qocalıqdan çox-çox qabaq!

Akademik Nizami Cəfərov tam həqiqətində qəbul etmişdir ictimaiyyət, onun hər bir məqaləsi, kitabı dərhal diqqət mərkəzinə düşür, resenziyalar yazılır. Bu fikri sözgəlişi demirəm: Hazırda alim titulunda olanların bir qismi həqiqəti ya-lana büküb qələmə verir, saxtakarlığa əl atırlar, özlərini hərtərəfli bilik sahibləri ki-mi aparırlar. Halbuki, bələlərinin heç fərdi üslubu belə yoxdur, məqalələri, kitab-ları montaj təsiri yaradır. Əlbəttə, bu gün elm müstəvisində həqiqəti sevənlər, ya-landan uzaqlaşanlar və ikiüzlülüyü yaxına buraxmayanlar az deyil. Mən belələrinə Nizami Cəfərovun bütövlüyü prizmasından baxıram, qürur hissini yaşayıram!

**Akademik Nizami Cəfərovun elmi əsərlərinin adını çəkmək fikrində, düzü deyiləm, hamımız tanıyırıq, oxuyuruq. Mən də istisna deyiləm. ”Azərbaycan türk-cəsinin milliləşməsi tarixi”, ”Eposdan kitaba”, ”Azərbaycanşünaslıq məsələləri”, ”Füzulidən Vaqifə qədər”, ”Azərbaycanlıların etnokultraloji birliyin, sosioloji-ideoloji üfüqləri”, ”Qədim türk ədəbiyyatı”, ”Türkologiyanın müasir problemləri”, ”Türkün dünyasından türk dünyasına” və s. monoqrafiyaların müəllifidir. Eyni zamanda orta və ali məktəblər üçün dərsliklər də yazmışdır, bu gün də istifadə olunur. Bu kitablardan şəxsən mənə hədiyyə etdikləri də vardır.**

Akademik Nizami Cəfərov müasir ədəbi mühitin aparıcı simalarından biridir. Azərbaycan Yazıçılar birliyinin ədəbi-yubley tədbirlərində müntəzəm iştirak edir, sözünü deyir. Təsadüfi deyil ki, o, çağdaş yazıçılarımızdan Anar, Elçin, İ.Şıxlı, İ.Muğanna, habelə şairlə-rimizdən S.Vurğun, R.Rza, Yusif Həsənbəy, N.Həsənzadə, F.Qoca və başqalarının yaradıcılığı haqqında məqalələr yazmışdır. Xalq yazıçısı Elçinin zəngin yaradıcılığından bəhs edən monoqrafiyanın müəllifidir.

Buracan yazdıqlarımla kifayətlənmək istədim, həm də oxucuları yormağı la-zım bilmədim. Amma qərarımda tələsdiyimi də gizlətmirəm və soruşdum özüm-dən; - Bu yazıçı Nizami Cəfərovun 60 illik yubileyi üçünmü, o münasibətləmi qələmə aldın? Yoxsa, ya da düşünəcəkdimmi belə bir fikrə gəlmək? Sualı verməyə də bilərdim, ona görə ki, Nizami müəllim mənim üçün insanlığın, alimliyin, vəzifə adamı olmağın etalonudur, görüşlərimiz də adda-budda olmur, eyni səmimiyyət, eyni ab-hava, hansı çətinliklə üzləşməyim. - Mərkəzə gəlin, bir stəkan çay içək, tə-zə kitablarından gətir. - Bu sözlərin mənim üçün böyük dəyərləri var. Ona görə ki, elmi titullu, vəzifəli, istidə qalstuk taxan bəzi ziyalılarımız təqaüdçü alimi, yazarı görəndə uzaqdan səmtini dəyişir. Nə edəsən ki, günün reallığıdır.

Mən Nizami müəllimin əsərlərini oxuyuram və onun öz xarakterini duyu-ram, hərçənd, bu hissi yazıçılara, şairlərə şamil edirlər, düz nəticə deyil, elmi əsərlər də yaradıcı ilhamın məhsuludur, bir elmi məqaləni yazanda da o hissi yaşayı-ram.

Bu məqaləni səhər alatoranında təbiətin bakirə vaxtında başlayıb yazmışamsa, böyük insan və böyük alimin yaşadığı ömrü xəyalımdan keçirməyə bilərəmmi? Nə az, nə çox - qırx illik ünsiyyətin təmənnasız bir ömrü! Ağlıma gələrdimi bir zaman əsl türkgözlü, şivərək boylu, sıx saçlı Nizaminin 60 illiyilə üzbəüz duracağam, Ağstafanın Zəlimxan kəndində dünyaya göz açan bir gənc haqqında ürəyimdən ke-çənləri qələmə alacağam.

Nizami Cəfərovun yazılarında bir həzinlik, bir təmkinlik var, torpağın, me-şənin ətri var, hər fəslin rəngi duyulur.

Nizami Cəfərovun dili danışıq dilidir, söhbət edənin canlı diliylə yaxındır, eposlarımızı, şirin ədəbi əsərlərin dilinə yaxındır. Bu dildə İmayıl Şıxlı, İlyas Əfəndiyev, İsa Muğanna yazmışdır, kənd istiliyi, Qarayazı meşəsinin səsi və rəngi, ədəbi dilimizin gözəlliyi hopmuşdur. Nizami Cəfərovun elmi və publisistikasında məhəbbətin, rəngin, səsin dili mövcuddur. Təsəvvürümdə yanılmaq istəməzdim: Nizami Cəfərov hekayələr, povestlər, romanlar da yaza bilərdi, onda bu müşahidə qabiliyyəti, obrazlar seçimi, ünsiyyət gözəlliyi lazımıncadır. Bəlkə də yazacaqdır - nə yaşdadır ki! Bu yaşda yaradıcı adamlar ”ikinci” həyata qədəm qoyurlar. Nizami də bunu sezmiş; payıza aid bir yazı da qələmə almamışdır, payız mövzusu ondan qaçmışdır. Mənim dünyamda payız fəsillərin gözəlidir, təbiətin özünün rəngini qı-zıllaşdırır, öz rənginə qatışdırır. Dünyanın ən dahi rəssamları, şairləri, ədibləri pa-yızı tərənnüm etmişlər. Levitan, Səttar, Puşkin, Lermontov, Abbas Səhhət, Abdulla Şaiq... Yaradıcı adamlar payızı sevirlər hələ cavanlığından. Ona görə ki, payız təbiətdən: meşələrdən, zəmilərdən, dənizlərdən rəng alır, yağışlar gətirir. Ağacları çimizdirir, gümüşü boyalara çəkir. Torpağın görümü dəyişir, hava soyuqlaşır, üfüqlər al-qırmızı çalarlara bələnir.

Yazarlar - qəm sahibləri kamil yaşa çatanda daha da nəcibləşirlər.

Nizami Cəfərovda yaşamaq eşqi son dərəcə güclüdür, başqa cür necə ola bi-lər: Allahın və Taleyin ona verdiyi ömrü xeyirxahlıqla, kimsəsizlərə əl tutmaqla, dolu yaradıcılıqla yaşayır, nə üçün ümidsizliklə, yorğunluqla üz-üzə dayansın. Axı o, ürəyindəkiləri, düşündüklərini yazıb qurtarmamışdır. Hər bir günü, açılan sa-bahı ona tənəzzül vermir və burada nə qəribəlik ola bilər.

**Hörmətli böyük yazıçı, Nobel mukafatı laueratı İvan Buninin sözlərindən sonra yazacağam: - Bu qarışıq dünyada həyat kədərli olsa da hər halda gözəldir.**